Dövlətimizin bu sahəyə olan diqqət və qayğısı, Heydər Əliyev Fondunun gördüyü işlər nəticəsində internatların bir çoxu əsaslı tikinti və yenidənqurmadan sonra tamamilə yeni görkəm alıb. Hazırda Bakı şəhərində yerləşən 3 internat məktəbində əsaslı təmir və tikinti işləri aparılır, 4 internat məktəbində isə 2015-ci ildə təmir işlərinin başlanması nəzərdə tutulur.

İnternatlar üçün müasir avtobuslar alınaraq, uşaqların həmin nəqliyyat vasitələri ilə Bakı şəhərində, eləcə də bölgələrdə yerləşən tarixi abidə və muzeylərə ekskursiyalara və əyləncə məkanlarına aparılması təşkil olunur. Təlimin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə I-IV siniflər üzrə yeni tədris proqramları hazırlanıb, kiçik yaş qrupunda sağlamlıq imkanları məhdud olan uşaqlar üçün yeni dərslik və “Loqopedik albom” çap olunub, pedaqoji heyət üçün kurikulum təlimləri keçirilib.

Təhsil Nazirliyinin tabeliyində olan internat məktəblərində ilk dəfə olaraq ötən tədris ilindən beynəlxalq və yerli standartların, sanitar-gigiyenik və sanitar-epidemioloji tələblərin yerinə yetirilməsi məqsədilə qidalanmanın vahid mərkəzdən idarə edilməsinə başlanılıb, yeməklər xəstəliyin tipinə uyğun menyular üzrə hazırlanır. Eləcə də internat məktəblərinin avadanlıq, geyim və digər resurslarla təchizatı sifarişlərə uyğun olaraq tam yerinə yetirilir.

Qeyd olunmalıdır ki, son vaxtlarda mediada adı çox hallandırılan 11 nömrəli İnteqrasiya təlimli internat məktəbində də yuxarıda sadalanan tədbirlər çərçivəsində bir sıra keyfiyyət dəyişiklikləri baş verib. Bu il müəssisəyə yeni təyin olunan rəhbərlik müəssisənin fəaliyyətini qaydaya salmaq üçün bir sıra tədbirlər həyata keçirib. Bu tədbirlər kollektivdə sağlam ab-havanın yaranmasından məmnun olmayan və əvvəlki rəhbərlikdə təmsil olunan bəzi şəxslərin və özlərini “uşaq müdafiəçiləri” hesab edən himayədarlarının qəzəbinə səbəb olub. Bu iki qrupun iş birliyi nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların məsumluğundan istifadə edilərək, sifarişli və qərəzli xarakter daşıyan materiallar hazırlanıb KİV-ə ötürülür, kollektivdə çalışan müəllim və tərbiyəçilərin fədakar və təmənnasız əməyinə kölgə salınır.

Çox təəssüflər olsun ki, istər bu ilin mayında 7 nömrəli, istərsə də bu günlərdə 11 nömrəli internat məktəblərində uşaqların görüntülərindən istifadə edilməklə hazırlanan, heç bir əxlaq və mənəviyyata sığmayan sensasiya xarakterli materiallar eyni ssenari və həftənin eyni günündə təqdim olunur.

Əslində isə nə baş verib? 11 nömrəli internat məktəbində əvvəllər rəhbər vəzifələrdə işləmiş Mülkicahan Əliyeva öz qeyri-sağlam ambisiyaları ilə kollektivdə hərc-mərclik, özbaşınalıq mühiti yaratmağa çalışıb, müəssisənin işgüzar nüfuzuna xələl gətirib. Son hadisədən üç həftə əvvəl həmin şəxs ictimai ajiotaj yaratmaq həvəsi ilə internatda uşağın yüngül yanıq xəsarəti alması faktının süni olaraq şişirdilməsinə çalışmışdır. Həmin vaxt istədiyinə nail olmayan bu xanım noyabrın 20-də sanitar qovşağında məlum çəkilişi təşkil etmişdir. Bu və digər antipedaqoji hərəkətlərinə görə, o, internat məktəbinin pedaqoji şurasının və həmkarlar təşkilatının rəyinə əsasən, 21.11.2014-cü il tarixli əmrlə tutduğu vəzifədən azad edilib. Elə həmin gün “sensasiyalı” video portallarda yerləşdirilib və “uşaq müdafiəçiləri” kimi təqdim olunan şəxslər mediada öz etirazlarını bildiriblər.

Təhsil Nazirliyi tərəfindən internatın fəaliyyətində pozuntuların olub-olmamasını müəyyənləşdirmək üçün müvafiq iş aparılır.

Lakin, burada bir neçə məqam xüsusi maraq doğurur - əgər internat məktəbində illərlə pozuntular davam edirdisə, onda bu “uşaq əzabkeşləri” harada idilər? İkincisi isə ondan ibarətdir ki, bir çox hallarda “uşaq müdafiəçiləri” uşaqlara valideynlərindən daha çox “can yandırırlar”. Bu həm cari ilin mayında, həm də bu günlərdə baş verən analoji hallarda aydın görünür.

Əfsuslar olsun ki, bir çox hallarda media məkanında obyektivlik prinsipi gözlənilmir, çalışdığı kollektivdə əmək qanunvericiliyini pozan və buna görə də cəzalandırılan insanlar “qəhrəman” statusunda manşet xəbər olur. Bütün bunlarla yanaşı, Təhsil Nazirliyinə ilk müraciət əsasında, bir çox hallarda da nazirliyin təşkilatçılığı ilə media təmsilçiləri həmin məktəbdə olub, ətraflı müşahidə və təhlil apara biliblər. Ölkə mediasının 30-dan çox təmsilçisinin iştirakı ilə bu ilin yayında 11 nömrəli internat məktəbinə təşkil olunan media-turda jurnalistlər təxminən iki saat ərzində məktəbdə baş verən bütün proseslə yerindəcə tanış olub, şagirdlərlə birlikdə nahar edib, onların asudə vaxtlarını necə keçirdiklərini öz gözləri ilə görüblər.

Qeyd olunan məsələ ilə bağlı hüquq-mühafizə orqanları araşdırmalara başlayıb. Bütün təhsil müəssisələrində, o cümlədən Təhsil Nazirliyinin tabeliyində olan internat məktəblərində qanun pozuntusu hallarına qarşı mübarizə hər hansı bir təzyiq və toxunulan maraqlara baxmayaraq bundan sonra da davam etdiriləcəkdir.